# Seçkilərdə şəffaflığın təmin olunması üçün tətbiq edilən vasitələr dünya praktikasında yenilikdir

***Parlament seçkiləri başa çatsa da, beynəlxalq müşahidəçilər hələ də öz təəssüratlarını bölüşür, həmin gün hava şəraitinin əlverişsiz olmasına baxmayaraq, seçicilərin həvəslə səsvermədə iştirakını yüksək qiymətləndirir, bunu əhalinin seçkiyə olan marağı ilə əlaqələndirirlər. Əksər beynəlxalq müşahidəçilərin diqqətini cəlb edən məqamlardan biri də şəffaflığın təmin olunmasında istifadə edilən üsullardır.***

ABŞ-dan olan beynəlxalq müşahidəçilərlə müxtəlif seçki məntəqələrində qarşılaşdıq. Onlar seçkinin gedişini diqqətlə izləyirdilər. Həmsöhbətim ABŞ Hərbi-Dəniz Qüvvələrinin keçmiş zabiti , tanınmış yazıçı Raul Loueri Kontrerasdır.

İlk sualım Azərbaycanı yaxından tanıması, ölkəmiz haqqında bildikləri ilə bağlı oldu:



***– Xahiş edirik, özünüz haqqında bir qədər ətrafl məlumat verəsiniz. Bu, Azərbaycana neçənci səfərinizdir?***

– Mən bundan əvvəl də ölkənizdə səfərdə olmuşam. Səfər çərçivəsində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı ərazilərə baş çəkmişəm, onlarla görüşüb müsahibələr götürmüşəm, qarşılaşdıqları müsibətləri dinləmişəm. Uzun müddət hərbi sahədə çalışsam da , həm də dünyada tanınmış yazıçılardanam. Eyni zamanda, ABŞ televiziya və radio kanallarının şərhçisiyəm. " Dağlarda qətl. Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" adlı kitabın müəllifiyəm . Bu kitab ABŞ-ın Los-Anceles şəhərində çapdan çıxıb. Həm də Xocalı soyqırımına dair Birləşmiş Ştatlarda nəşr olunmuş və satışa çıxarılmış ilk kitabdır.

***– Budəfəki səfərinizin məqsədi nədir?***

– Beynəlxalq müşahidəçi kimi Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərinin gedişini izləyirəm. Müşahidə apardığım seçki məntəqələrində qanunazidd heç nə görmədim. Hər şey normal və beynəlxalq standartlara uyğun aparıldı. Səsverməyə gələnlərlə komissiya üzvləri arasında mübahisə yaranmadı. Təbii ki, bu da hazırlıq işlərinin yüksək səviyyədə aparıldığının göstəricisidir. Şəffaflığın təmin olunmasına gəlincə, hər şey yüksək səviyyədə idi. Elə üsullardan istifadə edilirdi ki, dünya praktikasında əsl yenilik idi.

***– Bilmək olarmı ki, hansı yeniliyi nəzərdə tutursunuz?***

– Əlbəttə. Mən barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsini nəzərdə tuturam. Səsverməyə gələnlərin baş barmaqlarının bənövşəyi lampa ilə yoxlanıldıqdan sonra maye ilə işarələnməsi diqqətimi cəlb etdi. Maraqlandım. Məlum oldu ki, təkrar səsvermənin qarşısını almaq üçün tətbiq olunan üsuldur. Çox yaxşı üsuldur. Mən indiyə qədər müşahidə apardığım seçkilərdə belə bir üsuldan istifadə olunduğunu görməmişdum. İlk dəfədir ki, Azərbaycanda görürüəm. Deməli, ölkənizin rəhbərliyi seçkilərin şəffaf və demokratik keçirilməsində maraqlıdır. Bu, çox yaxşı haldır. Belə seçkilərdə demokratiya qalib gəlir. Parlament seçkilərində iştirak edən qadın namizədlərin sayının çox olmasını xüsusilə qeyd etmək istərdim.

**Digər həmsöhbətim ABŞ-ın Los–Anceles şəhərindən gəlmiş Yəhudi Respublikaçılar Alyansının təsisçisi Mitç Silbermandır. O dedi:**

– Mən sabibkarlıq fəaliyyəti ilə məşğul oluram. Buna baxmayaraq, siyasətdən də kənarda qalan deyiləm. Azərbaycanda



keçirilən parlament seçkilərində beynəlxalq müşahidəçi kimi iştirakımdan çox məmnunam. Ölkənizi yaxşı tanıyıram. Bu gənc müstəqil dövlətin son illər qazandığı uğurlarla tanışam və demokratik seçki keçirilməsinə önəm verdiyini bilirəm. Qısa müstəqillik tarixi olsa da, Azərbaycan beynəlxalq aləmdə tanınan ölkələrdəndir.

***– Seçkinin gedişini diqqətlə müşahidə etdiyinizi dediniz. Gördükləriniz sizi qane etdimi?***

– Açığını deyim ki, gözlədiyimdən də artıq demokratik seçkinin şahidinə çevrildim. Paytaxtda və regionda baş çəkdiyim müxtəlif seçki məntəqələrində əhalinin yüksək siyasi fəallığının, səmimiyyətinin, qonaqpərvərliyinin şahidi oldum. Seçkiyə hazırlıq işlərini yüksək qiymətləndirirəm. Çox məmnun qaldım. Səs verməyə gələnərin bəziləri ilə söhbət etdim. Məlum oldu ki, əhali çox vətənpərvərdir. Bu amil Amerika və Azərbaycan xalqlarını bir araya gətirir. Gənclərin seçkidəki fəallığı diqqətimi daha çox cəlb etdi. Namizədlər arasında gənclərin çoxluğu ölkənizdə onlara yüksək etimad göstərilməsindən xəbər verir. Gənclər böyük qüvvədir. Ölkənin modernləşdirilməsinə kömək edəcək yeni və enerjili parlament üzvlərinin seçilməsi yaxşı haldır. Hərtərəfli biliyə və geniş dünyagörüşə malik gənclərdən istifadə etmək yeni formalaşan parlamentin gələcək fəaliyyətində böyük rol oynaya bilər. Müşahidələrim zamanı beynəlxalq standartlara cavab verən seçkinin şahidi oldum.

*Müsahibəni qələmə aldı:*
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 12 fevral.- S.6.